Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası
Seçki Qərargahı

Seçki sistemləri və seçki komissiyalarının təşkili

yerli və beynəlxalq təcrübə

Bakı 2010

Müəllif: tarix elmləri namizədi Məhərrəm Zülfüqarlı

Müdəricat:

Ön söz

1. Seçki sistemləri sahəsində yerli və beynəlxalq təcrübə
2. Seçki komissiyalarının formalaşdırılması sahəsində Azərbaycan təcrübəsi
3. Seçki komissiyalarının formalaşdırılmasında beynəlxalq təcrübə

Ön söz

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, yəni 1991 – ci ilin 18 oktyabrından bu günə kimi ölkə üzrə 11 seçki və 5 referendum keçirilib. Seçkilərin və referndumların xronologiyası aşağıdakı kimidir:

Prezident seçkiləri- 1992,1993, 1998, 2003, 2008
Milli Məclisə seçkilər – 1995, 2000, 2005
Bələdiyyə seçkiləri – 1999, 2004, 2009

Referendumlar:

- 29 dekabr 1991-ci il
- 29 avqust 1993 – cü il
- 12 noyabr 1995-ci il
- 24 avqust 2002-ci il
- 18 oktyabr 2009 – cu il

Azərbaycan Respublikasının seçki qanunvericiliyi beynəlxalq təşkilatların tövsiyyələri nəzərə alınmaqla zaman- zaman dəyişdirilərək, təkmiləşdirilib. "Secki Məcəlləsi"nə son dəyişiklik 2 iyun 2008 – ci iltarixdə həyata keçirilib. Bu zaman 145 maddəsinə 91 dəyişiklik edilib. Dəyişikliyə əsasən, seçki kampaniyası müddəti dörd aydan 75 günə endirilib, namizədlərin pul depoziti hesabına qeydiyata alınması ləğv edilib, namizədlərin qeydiyyata alınması üçün tələb olunan imzalar 45 mindən 40 minə endirilib, dövlətdən maliyyələşən televiziya (AzTV), radio və qəzetlərdə namizdlərin pullu və pulsuz təbliğat aparması qadağan olunub, prezidentliyə namizədlərin seçki fondu bir milyon manatdan on milyon manata, deputatlığa namizədlər üçünsə, 85 min manatdan 500 min manata qədər artırılıb, hərbi hissələrdə seçki məntəqələrinin yaradılması ləğv edilib, adı seçici siyahısına düşməyən şəxslərin seçki günü siyahıya daxil edilməsi səlahiyyəti məhkəmələrdən alınaraq, məntəqə seçki komissiyasına verilib, seçkilərdə "exit-poll" keçirən təşkilatların Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməsi tələbi irəli sürülüb. Seçkilərin gedişinə qanunsuz müdaxilənin yolverilməzliyi, seçki bülletenlərinin zərflərə qoyulmaması, müşahidəçiləri digər şəxslərdən fərqləndirən vəsiqələrin verilməsi, seçici siyahılarında seçicilərin ünvanlarının göstərilməsi, seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsi ilə bağlı Venesiya Komissiyasının təklifləri Seçki Məcəlləsinə daxil edilib.

Lakin bütün bunlara baxmayaraq bir sıra məsələlər, xüsusilə seçki sisteminin dəyişdirilməsi, seçki komissiyalarının paritet əsaslarla formalaşdırılması və s. məslələrlə bağlı müxtəlif təkliflər yenə də səslənməkdədir. Venetsiya komissiyası da bu məsələlər barədə öz tövsiyyələrini verir. Son illərin təcrübəsi sübut edir ki, bəzən beynəlxalq təşkilatların irəli sürdükləri təklif və tövsiyyələr abstrak xarakter daşıyır və realıqlarla uzlaşmır. Bunu əyani surətdə görmək üçün yerli və beynəlxalq təcrübənin müqayisəli təhlilinin aparılmasına ehtiyac var.

I Seçki sistemləri sahəsində yerli və beynəlxalq təcrübə

Seçki sistemləri sonsuz sayda müxtəlif ola bilər. Bunu əsas səbəbi odur ki, heç bir seçki sistemi qiymətləndirmə üçün seçilmiş bütün meyarlara uyğun gələ bilməz. Hansısa sistemi seçərkən insanlar hansısa dəyərləri o biri dəyərlərin itkisi hesabına əldə edirlər. Buna görə də hər bir ölkə özünə daha çox uyğun olan, hökumətin effektiv işləiməsinə, ölkənin iqtisadi yüksəlişinə, stabiliyinə şərait yaradan sistemi seçir.

Azərbaycan Respublikasında parlament seçkiləri həmin ildə keçirilmiş Milli Məclisə seçkilər də daxil olmaqla 2000 – ci ilə qədər qarışıq sistem üzrə seçkilər keçirilib. Yəni

Milli Məclisdə olan 125 yerdən 100 – ü plüralist – majoritar sistem, 25 – i isə proporsional nümayəndəlik sistemi üzrə formalaşıb. Lakin 2000 – ci ildən sonra 2005 – ci ildə keçirilən parlament seçkiləri plüralist – majoritar sistemi ilə həya keçirilib. Milli Məclisə 2010 – cu ilin noyabrında keçiriləcək seçkilər də plüralist – majoritar sistemi ilə baş tutacaq. Bəzi müxalifət partiyalar proporsional nümayəndəlik sisteminin bərpa olunması və parlament seçkilərin tam bu sistem üzrə keşirilməsi ilə bağlı təkliflər irəli sürürlər. Lakin Milli Məclisdə çoxluq təşkil edən partiya əksinə plüralist – majoritar sistemin Azərbaycan realığına daha çox uyğun gəldiyinin, hökümətin əvvəlki illərə nisbətən daha effektiv fəaliyyətinə şərait yaratdığını bildirilər. Bu cür təkliflərin hansının daha əhəmiyyətli olduğuunu yaxından görmək üçün bu sahədə mövcud olan beynəlxalq təcrübəyə nəzər salmaq vacibdir.

Beynəlxalq təcrübədə seçki sistemlərinin müxtəlif kateqoriyaları var ki, bunlar da aşağıdakılardır:

- Plüralist – majoritar sistemlər (Hamısı qalibə çatır -HQÇ);
- Proporsional nümayəndəlik sistemləri (PN)
- Yarıproporsional sistemlər

Azərbaycan Respublikasında tətbiq olunan plüralist – majoritar sistem (HQÇ) Amerika Birləşmiş Ştatları və Böyük Britaniya kimi demokratik ölkələrdə tətbiq olunur. Gürcüstanda parlamentdə olan 235 yerin 150 – si plüralist – majoritar, 85 - i isə proporsional nümayəndəlik seçki sistemi ilə formalaşdırılır.. Ukrayna parlamentində olan 450 yerdən 250 –sinə seçkilər plüralist – majoritar, 200 yerə isə proporsional nümayəndəlik seçki sistemi üzrə aparılır. Türkiyə Böyük Məclisində isə mövcud olan 550 yerin hamısı proporsional nümayəndəlik seçki sistemi ilə formalaşdırılır. Yuxarıda adı çəkilən seçki sitemləri haqqında ətraflı məlumat əldə etmək üçün onların şərhinə ehtiyac var.

Plüralist – majoritar sisteminə (HQÇ) görə səslərin nisbi çoxluğunu qazanan namizəd qalib gəlir.Məslən, bir namizəd səslərin 51% - ni, digəri 49 % - ni qazanırsa, 51% səs toplamış qalib hesab olunur və demək olar ki, səslərin hamısı (100%) qalibə çatır. Bu sistem Proporsional nümayəndəlik sistemindən (PN) fərqli olaraq seçkilərdə ən çox səs qazanmış partiyaya parlamentdə yerlərin sayını artırmağa imkan verir. Məsələn, Bu sistemlə seçicilərin 53 % - nin səsini qazanmış partiya yerlərin 60 % - ni ala bilər. Bu sistemə görə hər dairədən bir namizəd seçilir və ən çox səs qazanmış namizəd qalib gəlir.

Plüralist – majoritar sistem (HQÇ) parlamentdə çoxluq təşkil edən partiyaya öz proqramını, hətta həmin partiyadan kimlərinsə müxalifətə keçməsindən asılı olmayaraq həyata keçirməyə imkan verir. Bu sistem hökumətin effektivlik meyarına daha çox uyğun gəlir.

Proporsional nümayəndəlik sistemləri (PN). Bu sistemə görə hər bir partiyaya verilən səslərin miqdarı ilə parlamentdə tutduğu yerlərin sayı uyğun gəlir.Məsələn 52% səs toplamış partiya parlamentdə yerlərin 52% - ni əldə edir. Bu sistem ölkə üzrə partiyalara verilən səslərin itməməsi və onlara çatması baxımından cəlbedici görünür. Lakin bu sistem parlamentdə ədavətdə olan və rəqabət aparan çoxlu sayda partiyaların olmasına şərait yaradır ki, bu da koalision çoxluğun formalaşdırılması işini çətinləşdirir. Hətta belə koalisya yarandıqda belə onun sabitliyinə ümid az olur. Nəticədə hökümətin effektivliyi kəskin şəkildə aşağı düşür.

Yarıproporsional sistemlər . Adından göründüyü kimi bu sistem qarışıq sistem əsasında seçkini keçirməyi nəzərdfə tutur.

Bu sistemlərlə yanaşı preferensial səsvermə kimi tanınan **alternativ səsvermə** (AS) və Fransada tətbiq olunan **iki turluq sistem** mövcuddur. Bunların hər ikisi HQÇ sisteminin potensial qüsurunu aradan qaldırmağa imkan yaradır. Bu qüsür ondan ibarətdir ki, bir mandata 2 namizəd iddia etdikdə qələbə gözlənilmədən elə namizədə çata bilir ki, seçicilərə yenidən seçim imkanı verilsə onlar həmin namizədi rədd edərdilər. AS sitemi seçicilərə bu imkanı yaradır. Alternativ səsvermə (AS) sistemindən yalnız Avstraliyada və bir qədər dəyişilmiş şəkildə Sakit okeandakı Nauru ada dövlərtində istifadə olunmasına baxmayaraq bəzi ekspertlər onu dəstəkləyir. Bu sistemə görə namizədlər birmandatlı dairələr üzrə seçilir (HQÇ- da olduğu kimi). Lakin fərq ondadır ki, seçicilər öz istəklərinə uyğun olaraq namizədləri siyahı üzrə sıraya

düzürlər. Siyahıda birinci yer tutana 1 bal, ikinci yer tutana 2 bal verilir və s. namizədlərdən heç biri səslərin əksəriyyətini toplaya bilmədikdə, ən az səs toplamış namizəd sıradan şıxır. Bu proses o vaxta qədər davam edir ki, namizədlərdən hansısa biri səslərin 50 % - ni toplamış olsun. Belə olduqda təkrar hesablama zamanı namizədə verilmiş "ikinci yerlərin" cəmi nəzərə alınır.

Fransada tətbiq edilən iki turluq sistem analoji nəticənin əldə olunmasına yönəlib.

II Seçki komissiyalarının formalaşdırılması sahəsində Azərbaycan təcrübəsi

Azərbaycan Respubliksaında seçki komissiyalarının formalaşdırılması ilə bağlı bu vaxta qədər müxtəlif təkliflər irəli sürülüb, müxtəlif qanunlar qəbul edilib. Bunlar əsasən aşağıdakılardır:

- "Mərkəzi Seçki Komissiyası haqqında" Qanunun (15 may 1998 - ci il) 2-ci maddəsində qeyd olunurdu ki, MSK həlledici səsə malik 24 üzvdən ibarətdir. Bunlardan 12 üzvü Milli Məclis tərəfindən, həlledici səs hüququna malik olan digər üzvlər isə Azərbaycan Respublikası Konstitutsiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq prezident tərəfindən təyin edilir. Bundan başqa, həmin qanunda qeyd olunur ki, həlledici səsə malik olan MSK üzvləri heç bir siyasi partiyanın üzvü olmamalıdırlar.
- 2000-ci il parlament seçkiləri ilə əlaqədar qəbul olunmuş "Mərkəzi Seçki Komissiyası haqqında" Qanuna görə, 18 nəfər üzvü olan MSK-nın 1/3-i hakim partiyanın, 1/3-i Milli Məclisdə təmsil olunan 2 müxalifət partiyasının, 1/3-i müstəqil deputatları tərəfindən təyin olunmalı idi. Müstəqil deputatların da təyin edəcəyi 6 nəfərdən biri iqtidar partiyası, biri isə həmin 2 müxalif partiya ilə razılaşdırılmalı idi. Qərarların MSK-da üzvlərin 2/3-nin səsi ilə qəbul olunması da qanunda öz əksini tapmışdı. Bir nəfərin müxalifətlə razılaşdırılması, yəni onun rəyi ilə təsdiq olunması MSK-da heç bir tərəfin, yəni nə iqtidarın, nə də müxalifətin 2/3 səsə malik olmamasına gətirib çıxarırdı ki, MSK haqqında həmin qanun məhz bu cəhəti ilə əvvəlki qanunlardan fərqlənirdi. Lakin müxalifət ilə razılaşdırılmalı olan bir namizədin seçilməsi ilə bağlı problem yarandığına görə həmin müddəa sonradan dəyişdirildi.
- Venesiya Komissiyası 2003-cü ildə Seçki Məcəlləsinə MSK-nın tərkibi ilə bağlı yeni təklif verdi. Təklifə görə 1/3-i iqtidar partiyalarından, 1/3-i parlamentdə təmsil olunan partiyalardan, 1/3-i isə parlamentdən kənarda bir faizdən artıq səs toplayan partiyalardan təşkil olunması nəzərdə tutulurdu.
- Hazırda qüvvədə olan "Seçki Məcəlləsi"nin 24-cü maddəsinə görə "Mərkəzi Seçki Komissiyası 18 üzvdən ibarətdir. Mərkəzi Seçki Komissiyasının üzvləri Milli Məclis tərəfindən seçilir. Mərkəzi Seçki Komissiyasının 6 üzvü Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı, 6 üzvü parlamentdə təmsil olunan bitərəf deputatları, 6 üzvü Milli Məclisdə azlıq təşkil partiyaları təmsil edir.

Azərbaycan Respublikasında seçki komissiyalarının təşkili ilə bağlı siyasi partiyaların, QHT və müstəqil ekspertlərin mövqeləri 2007 – ci ilin noyabrında aşağıdakı kimi olub və faktlar göstərir ki, bu mövqelərdə elə bir ciddi dəyişikliklər baş verməyib:

Yeni Azərbaycan Partiyası (YAP)

- Seçki komissiyalarının tərkibi olduğu kimi qalmalıdır. Partiya paritetin əleyhinədir. Milli Məclisin müstəqil üzvləri MSK-da təmsil olunmalıdırlar.

Ana Vətən Partiyası

- Mövcud modeli dəstəkləyir.

- Paritet əsaslı sistem alınmayacaq, çünki partiyaların sayı çoxdur.
- Komissiya üzvlərinin təyin edilməsinə məsuliyyət hökumətin üzərinə düşməlidir.
- MSK siyasi mənsubiyyəti olmayan peşəkarlardan ibarət olmalıdır və onların namizədliyini Parlament və ya Prezident Aparatı irəli sürməlidir.
- DSK-lar və MnSK-ların üzvləri bələdiyyə üzvlərinin ümumi yığıncağının qərarı ilə təsdiq olunmalıdırlar.

ADP, Müsavat, AXCP və ALP

- Seçki Komissiyalarının tərkibinin 50% son seçkilərdə çoxluq qazanmış YAP-ın
- Qalan 50% isə son parlament seçkilərində 60-dan çox seçki dairəsində təkbaşına və ya seçki bloku tərkibində seçkilərə qatılmış və namizədləri seçicilərin etibarlı tanınmış səslərinin minimum 1%-nı toplaması rəsmən etiraf edilmiş siyasi partiyaların (ADP, Müsavat, AXCP və ALP-nin) nümayəndələrindən təşkil olunsun

Azərbaycan Milli İstiqlal Partiyası (AMİP)

- Seçki komissiyaları paritet əsasda, parlament və bələdiyyədə təmsil olunan partiyaların üzvlərindən formalaşdırılmalıdır.
- Partiyaların ən azı 50 rayonda təmsilçiliyi olmalıdır.

Ümid Partiyası

- MSK paritet əsasda formalaşdırılmalıdır.
- MSK son parlament seçkilərində iştirak edən siyasi partiyaların üzvlərindən təşkil olunmalıdır.
- DSK və MnSK-lar da eyni qaydada, MSK-nın təşkil olunduğu əsasda formalaşmalıdır.
- Bitərəf üzvlər də komissiyalarda təmsil olunmalıdırlar.
- MSK 18 üzvdən təşkil olunmalıdır. Bu bölgü aşağıdakı kimi aparılmalıdır:

9 üzv YAP-dan və Ana Vətən partiyasından
1 üzv Azərbaycan Demokrat Partiyasından
1 üzv Ümid partiyasından
1 üzv Müsavat partiyasından
1 üzv AXCP-dən
1 üzv AMİP-dən
1 üzv ASDP-dən
1 üzv Azərbaycan Liberal partiyasından
1 üzv Vətəndaş Həmrəyliyi partiyasından
1 üzv razılıq və ya püşkatma yolu ilə

Vətəndaş Həmrəyliyi Partiyası
1-ci variant:

- Seçki prosesini təkmilləşdirmək üçün proporsional seçki sistemi bərpa olunmalıdır.
- MSK, paritet əsasda, Milli Məclisdə çoxluq təşkil edən iqtidar

partiyasının nümayəndələrindən və azlıq təşkil edən partiyaların nümayəndələrindən təşkil olunmalıdır.

- MSK-nın 50%-i iqtidar partiyası və iqtidar partiyasını dəstəkləyən partiyalardan, 50%-i isə Azərbaycanın 60-dan çox rayon və şəhərdə rəsmi qeydiyyata alınmış nümayəndəliyi olan partiyalardan təşkil olunmalıdır.

2-ci variant:

- Ədliyyə Nazirliyi MSK üzvlüyünə hüquqşünasları təyin etməlidir.
- Seçki komissiyasının üzvü olmaq istəyənlər üçün test imtahanı təşkil edilməlidir. Vakansiya olduqda həmin vakant yeri tutmaq istəyən şəxs test imtahanı verməlidir.
- Seçki komissiyası müstəqil bir qurum olmalıdır. Vakant yer olduqda bu yeri tutan şəxs test imtahanı vasitəsilə seçilməlidir.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (*BAXCP)*

1-ci variant:

Mərkəzi Seçki Komissiyası 18 üzvdən təşkil olunmalıdır. Bu bölgü aşağıdakı kimi aparılmalıdır:

9 üzv YAP-dan
2 üzv Müsavat partiyasından
5 üzv parlamentdə təmsil olunan müxalifət partiyalarından
2 üzv parlamentdə təmsil olunmayan müxalifət partiyalarından

2-ci variant:

- 13 partiyanın təklifi dəstəklənir: qeydiyyatdan keçmiş bütün partiyalar namizəd irəli sürür və onlar püşkatma vasitəsilə seçilirlər. Püşkatma həmin partiyaların üzvlərindən ibarət olan qrup tərəfindən aparılır.
- Seçki komissiyası öz statusu olan müstəqil bir dövlət qurumu olmalıdır.

Böyük Quruluş Partiyası

- Mərkəzi Seçki Komissiyası 12 üzvdən ibarət olmalıdır. Bu üzvlər 2005-ci il parlament seçkiləri zamanı ən azı 5 namizədi qeydə alınmış partiyaların üzvləri olmalıdırlar.
- Seçkilərin keçirilməsinə məsuliyyəti hökumət daşımalıdır.
- Seçki komissiyalarının üzvlərini təyin etmək Ədliyyə və Daxili İşlər Nazirliklərinə həvalə olunmalıdır.
- Üzvlərin təyin olunmasını müşahidə etmək və hesabat vermək üçün ATƏT-ə xüsusi mandat verilməlidir.

Ədalət Partiyası

- MSK-nın yalnız hüquqşünaslardan ibarət olmasını dəstəkləmir.
- Paritet əsasda formalaşmasını da dəstəkləmir.
- MSK seçkilərdə namizəd irəli sürən siyasi partiyalardan və parlamentdə nümayəndəsi olan siyasi partiyalardan təşkil olunmalıdır.

Azərbaycan Liberal Demokrat Partiyası

- Mövcud sistemi inkişaf etdirmək lazımdır.

1-ci variant:
Birinci mərhələdə MSK siyasi partiyaların qeydiyyatdan keçmiş namizədlərinin nümayəndələrindən formalaşdirilmalıdır.
İkinci mərhələdə MSK yalnız parlamentdə nümayəndəsi olan siyasi partiyaların nümayəndələrindən formalaşdırılmalıdır.

2-ci variant:
MSK-nın üçdə biri parlamentdə çoxluq təşkil edən partiyaların nümayəndələrindən, üçdə biri parlamentdə azlıq təşkil edən partiyaların nümayəndələrindən, digər üçdə biri isə namizədləri qeydiyyatdan keçmiş lakin parlamentdə yer almayan partiyalar arasından püşkatma yolu ilə formalaşdırılmalıdır.

Açıq Cəmiyyət Partiyası

- MSK-nın üzvləri neytral olmalıdırlar.
- Seçki komissiyaları dövlət orqanlarında çalışan şəxslərdən təşkil olunmalıdır və onlar test imtahanı əsasında işə qəbul edilməlidirlər.
- Hökumət seçki komissiyalarının tərkibinə görə məsuliyyət daşımalıdır və beynəlxalq təşkilatlar hökumətə bu prosesi müşahidə etməkdə yardım göstərməlidirlər.
- Paritet qəbul edilən deyil.

Azərbaycan Sosial Demokrat Partiyası (ASDP)

- MSK-nın sədrliyinə və katibliyinə namizədlər Prezidentin təqdimatı əsasında Milli Məclis tərəfindən təsdiq olunmalıdır.
- MSK-dakı işçi qrupları əsas vəzifəsi prezident və ya parlament seçkiləri zamanı namizədlərin və siyasi partiyaların sənədlərini yoxlamaq və qeydiyyata almaq olan mütəxəssislərdən ibarət olmalıdır.
- Namizədlərin qeydiyyatı başa çatdıqdan sonra MSK, DSK-lar və MnSK-lar seçkilərdə iştirak edən namizədlərin və siyasi partiyaların səlahiyyətli nümayəndələrindən, paritet əsasda formalaşdırılmalıdır.
- Yekun seçki sənədləri və protokollar MSK ilə birgə namizədlərin və siyasi partiyaların səlahiyyətli nümayəndələri tərəfindən yoxlanmalıdır.

QHT – lərin və müstəqil ekspertlərin təklifləri:

I

- Seçki komissiyası bitərəf orqan olmalıdır və onların namizədləri qeydə almaq və ya qeydiyyatdan imtina etmək barədə qərarları heç kəsdə şübhə yaratmamalıdır.
- Seçki komissiyalarının üzvləri son parlament seçkilərində namizədləri qeydə alınmış siyasi partiyaların üzvləri olmalıdır.
- Paritet sistemi yaradılmalıdır.

II

- Seçki komissiyaları təlimatlar və normativ xarakter daşıyan qaydalar

hazırlamağı bacaran hüquqşünaslardan təşkil olunmalıdır. MSK üzvlərinin sayı 18-dən 12-yə endirilməlidir.

- Üzvlər beynəlxalq təşkilatların keçirdiyi test imtahanları vasitəsilə seçilməlidirlər.
- MSK nümayəndələri Parlamentdə çoxluq təşkil edən 4 siyasi partiyadan, nümayəndələri Parlamentdə azlıq təşkil edən 4 siyasi partiyadan və heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) 4 üzvdən təşkil edilməlidir.
- Seçicilər, namizədlər seçki məsələləri barədə maarifləndirilməlidirlər.
- Müstəqillərdən ibarət seçki komissiyasının yaradılmasına böyük ehtiyac var və müxalifət liderləri hazırda bu məsələnin üzərində çalışırlar.
- Azərbaycanda MSK üzvlərinin sayı həddindən çoxdur.
- Nəticələrin saxtalaşdırılmasında protokollar böyük rol oynadı.
- Biz seçki prosesində hər hansı bir işıq görmürük. Nə hakimiyyət nə də müxalifətə etibar var.

III

- Mövcud sistemdə MSK 18 üzvdən ibarətdir: 6 üzv iqtidarda olan partiyadan, 6 üzv müxalifət partiyasından, 6 üzv isə bitərəflərdən (hər üç tərəf parlamentdə təmsil olunur). 6 bitərəf üzv gələcəkdə QHT nümayəndələri ola bilər.
- Proporsional sistemin olmaması, "müxalifətin" ziddiyyətli qruplara bölünməsi kimi bir sıra amillər MSK-nın paritet əsasda formalaşmasına əngəl törədir.

IV

- Seçki komissiyaları test imtahanları əsasında formalaşmalı və yalnız hüquqşünaslar imtahanda iştirak edə bilərlər.
- Test imtahanı zamanı ən çox bal toplayan hüquqşünas sədr, ikinci yeri tutan şəxs sədr müavini, ən yaxşı üçüncü və dördüncü nəticələri əldə edənlər isə katiblər olmalıdırlar.
- Tələbə qəbulu sistemi etibar qazanmışdır, buna görə də seçki komissiyasının üzvlərini seçmək üçün də oxşar sistem təşkil edilməlidir.
- Test imtahanlarının nəticələri elə həmin gün elan edilməlidir.
- Test imtahanı vermək istəyənlər üçün heç bir məhdudiyyət olmamalıdır. Meyarlar müəyyən olunmalıdır. Hamı bərabər hüquqa malik olmalıdır.
- Üzvlər müstəqil olmalıdır.
- Onların azı 5 il toxunulmazlığı olmalıdır.
- Seçki komissiyaları üzvlərinin maaşı yüksək olmalıdır ki, onlara rüşvətlə təsir etmək mümkün olmasın.

V

- Komissiyalara dövlət statusu verilməlidir.
- Azərbaycanda müxalifətin paritet sistemini tarazılaşdırmağa qüvvəsi yoxdur.
- Komissiyalar hörmət qoyulan quruma çevrilməlidir.

VI

- Seçki komissiyalarının tərkibi barədə danışanda hədəf DSK və ya MnSK-lar deyil, həmişə MSK olur.
- Venesiya Komissiyası paritet əsaslı tərkibi təklif edib. Yaxşı olar ki, fikirlər bu istiqamətdə cəmlənsin. Bu, prosesi sürətləndirə bilər.
- Paritet barədə olan təkliflər dəstəklənir
- MSK-nın 50%-i iqtidar və onu dəstəkləyən partiyalardan, digər 50%-i isə 60-dan çox dairədə qeydiyyatdan keçən partiya üzvlərindən təşkil edilməlidir.
- Seçki komissiyasının üzvləri bir mərhələli test prosesi vasitəsilə seçilməlidirlər.

VII

- Cəmiyyətin siyasi partiyalara etimadı yoxdur.
- QHT-lərin təklifləri çox güman ki, həyata keçməyəcəkdir.
- MSK qeydiyyatdan keçmiş 52 siyasi partiyanınn təmsilçilərindən püşkatma vasitəsilə yaradılmalıdır.

VIII

- Proporsional sistem bərpa olunarsa, MSK üzvləri bütün partiyaları təmsil etməli və bunun üçün də bir qayda müəyyən edilməlidir.
- Hazırda bizdə majoritar sistem mövcud olduğundan MSK üzvü müstəqil, bitərəf olmalıdır.
- Seçki prosesi siyasi prosesdir və buna görə də siyasi partiyalar bu proseslə məşğul olmalıdırlar.
- Siyasi partiyalar bu gün çox zəifdirlər. Onların heç bir prosesə təsirləri yoxdur.
- Paritet sisteminin təsdiq olunması o demək deyil ki, seçkilər demokratik keçiriləcək.
- MSK üzvü olmaq üçün müstəqil insanları tapmaq çətindir. Heç bir partiya hegemon rolunu oynamalı deyil.

IX

- MSK həddindən artıq güclüdür. Saxtakarlıqlar baş verdi və MSK protokolları ləğv etdi.
- Qanuna elə dəyişikliklər edilməlidir ki, MSK-nın səlahiyyəti həddindən çox olmasın.
- Qanunda göstərilməlidir ki, MSK-nın səlahiyyəti çərçivəsində hansı qərarları vermək olar.

X

- Komissiya üzvləri müstəqil olmalıdırlar.
- MSK 11 üzvdən formalaşmalıdır.

- Seçki komissiyasının üzvləri bir mərhələli test prosesi vasitəsilə seçilməlidirlər.
- Bütün namizədlərin bərabər hüquqları olmalıdır.
- Tələbə Qəbulu üzrə Dövlət Komissiyası test imtahanlarını keçirməlidir.
- Parlamentdə təmsil olunan və 1%-dən çox səs toplamış partiyalar, hökumət nümayəndələri və beynəlxalq təşkilatlar test imtahanı komissiyasının üzvü olmalı və imtahanın keçirilməsini müşahidə etməlidirlər.
- 3000-3500 sualdan ibarət bank/baza yaradılmalıdır. Test imtahanından 1 ay əvvəl bütün suallar çap olunmalı və namizədlərə paylanmalıdır.
- Test imtahanı günü imtahan üçün bankdan/bazadan ixtiyari 100 sual seçilməlidir.
- Bütün xarici dövlətlər öz suallarını banka/bazaya daxil etmək üçün göndərməlidirlər.
- Sualların 70%-i Seçki Məcəlləsindən və digər 30%-i isə Konstitusiyadan, İnzibati Xətalar Məcəlləsindən və Mülki Prosessual Məcəllədən olmalıdır.
- Ən çox bal toplayan 11 şəxs MSK-nın üzvü təyin olunmalıdır.
- Ən yüksək bal toplayan namizəd MSK-nın sədri seçilməlidir.
- Digər yüksək bal toplayan namizədlər DSK sədrləri təyin olunmalıdırlar (əgər rayonlara köçməyə razılıq verərlərsə).
- Hazırda təklif olunan paritet sistemi Konstitusiyaya ziddir və hakimiyyətin inhisarına gətirib çıxaracaq.

XI

- Ötən 14 ildə Azərbaycan hələ də azad və ədalətli seçkilər keçirməyib.
- Proporsional sistem ləğv olunduğundan qadınların seçilmək imkanları çox azdır.
- Hakimiyyət seçki komissiyalarının tərkibinə görə məsuliyyəti öz üzərinə götürməlidir.
- Seçki komissiyalarının üzvləri inzibati işçilər olmalıdırlar. Belə olarsa, kimin hansı partiyaya mənsub olması əhəmiyyətli olmayacaq.

.

XII

- Avropa Şurası Venesiya Komissiyasının bütün təklifləri ilə razıdır.
- Seçki komissiyaları paritet (bərabər) əsasda formalaşmalıdır.
- Hansı siyasi qüvvənin seçki komissiyalarını balanslaşdıracağı müəyyən olunmalıdır. Seçki komissiyaları 2005-ci il Parlament seçkilərində iştirak edən və namizədləri dairələrin yarısından çoxunda qeydiyyatdan keçmiş siyasi partiyalar və siyasi partiyalar bloklarının nümayəndələrindən formalaşmalıdır.

XIII

- MSK siyasi partiyalardan təşkil olunarsa bu obyektiv olmaz.

Komissiya əsasən hüquqşünaslardan, ziyalılardan və QHT nümayəndələrindən təşkil edilməlidir.

- MSK üzvləri heç bir siyasi partiyanın üzvü olmamalıdırlar. Onlar dövlət qulluqçuları da ola bilməzlər.

XIV

- Seçki komissiyaları ideyasından imtina etməliyik, çünki hətta paritet sistemi də azad seçkilərin keçirilməsinə təminat vermir.
- Hakimiyyətin icraedici orqanı seçkilərin idarə olunması və düzgün təşkil edilməsi məsuliyyətini öz üzərinə götürməlidir.
- İnzibati vəzifələrə seçim zamanı test imtahanını tətbiq etmək məqsədəuyğun olardı.
- Seçki komissiyaları sistemi qalarsa, üzvlərin test imtahanı üzrə təyin edilməsi məntiqə uyğun deyil.

XV

- MSK üzvlərinin heç bir siyasi mənsubiyyəti olmamalıdır.
- Siyasi partiyalar seçki komissiyalarının təşkilində iştirak etməli, lakin üzvü olmalı deyillər.
- QHT-lər seçki komissiyalarının təşkilində və formalaşma prosesinin monitorinqində iştirak edə bilərlər. Lakin MSK-ya üzv olmaq onların səlahiyyətindən kənardır.
- Azı 37 dairədə namizədlərini qeydiyyata aldırmış siyasi partiyalar və siyasi partiyalar blokları seçki prosesinə qoşula bilərlər.
- Paritet sistemi dəstəklənməməlidir.

Seçki Məcəlləsinin 18.3 maddəsinə dəyişiklik edilməli və seçki komissiyaları test imtahanı əsasında formalaşan dövlət orqanları olmalıdır.

Göründüyü kimi qüvvələr nisbətinin qeyri bərabərliyi, müxtəlif fikirlərin mövcudluğu və müxalifət daxilində vahid mövqenin olmaması seçki komissiyalarının paritet əsasda formalaşdırılmasını qeyri mümkün edir. Beynəlxalq təcrübə isə sübut edir ki, heç bir ölkənin qanunvericiliyində seçki komissiyalarının paritet əsalarla formalaşdırılması ilə bağlı müddəa yoxdur.

III Seçki komissiyalarının formalaşdırılması sahəsində müxtəlf ölkələrin təcrübəsi

Seçki komissiyalarını təşkili ilə bağlı tədqiqatlar göstərir ki, bunun üçün hansısa vahid standartlar yoxdur. Hər bir ölkə özünə uyğun olan qaydada komissiyaları təşkil edir. Deyilənləri əyani görmək üçün aşağıdakı ölkələrin təcrübəsinə nəzər salaq.

Almaniya

Seçki orqanları aşağıdakılardan ibarətdir:

1. Federal Seçki məmuru və Federal Seçki Komissiyası;
2. Hər bir ərazi üzrə Ərazi Seçki məmuru və Ərazi Seçki Komissiyası;
3. Hər bir bölgə üzrə Bölgə Seçki məmuru və Bölgə Seçki Komissiyası;
4. Hər bir seçki regonu üzrə Seçki məmuru və Seçki Şurası;
5. Poçt vasitəsilə verilmiş səslərin hesablanması üçün hər seçki regionu üzrə ən azı bir Seçki məmuru və Seçki Şurası. Poçt vasitəsilə verilmiş səslərin hesablanması üçün lazım olan Seçki Şuralarının sayı Bölgə Seçki məmuru tərəfindən seçki günü müəyyənləşdirilir.

Bir neçə qonşu seçki əraziləri üçün Birgə Seçki Komitələri yaradıla bilər ki, belə hallarda bu komitələrin sədrləri həmsədr statusunda çıxış edirlər. Poçt vasitəsilə verilmiş səslərin hesablanması üçün Seçki Şuraları və Seçki məmurları bir və ya bir neçə icma və ya seçki ərazisi üzrə müəyyənləşdirilə bilər. Bu məslə barədə qərarı Ərazi hökuməti və ya onun tərəfindən təyin olunan agentlik verirlər.

- Federal Seçki məmuru və onun müavini Federal daxili İşlər Nazirliyi tərəfindən qeyri – müəyyən müddətə təyin olunur;
- Ərazi Seçki məmuru və onun müavini Ərazi hökuməti və ya onun müəyyənləşdirdiyi orqan tərəfindən qeyri – müəyyən müddətə təyin olunur;
- Bölgə Seçki məmurları və onların müavinləri hər seçkidən əvvəl Ərazi hökuməti və ya onun müəyyənləşdirdiyi orqan tərəfindən təyin olunurlar. Federal Seçki məmuru və Ərazi Seçki məmuruna bu barədə məlumat verilirnəlidir;
- Federal Seçki Komissiyası 8 nəfərdən ibarətdir. Onları Federal Seçki Komissiyasının sədri kimi fəaliyyət göstərən Federal Seçki məmuru təyin edir. Digər seçki komissiyaları isə 6 nəfərdən ibarət olub həmin komissiyaların sədri olan Seçki məmurları təyin edirlər.

Federal Seçki məmuru, Ərazi Seçki məmuru və Bölgə Seçki məmuru seçkinin tarixi elan ediləndən dərhal sonra seçki komitələrini üzvlərini və hər üzv üçün bir müavin təyin edirlər.

Seçki şuraları Seçki məmuru, onun müavini və Seçki məmuru tərəfindən təyin olunan 3-7 nəfərdən ibarət olur. Mümkün olduğu hallarda seçki komissiyalarına üzv təyin edərkən ərazidə qeydiyyatı olan partiyalar nəzərə alınmalıdır.

Fransa

Seçkilər hər birinin xüsusi vəzifəsi və səlahiyyətləri olan aşağıdakı müxtəlif orqanlar həyata keçirir:

- Dövlət Şurası – Fransa milli hhökümətinin bir orqanıdır. Vitse prezident rəhbərlik edir.Şuranın rəhbəri rəsmi mərasimlərdə Fransanın ən öndə duran dövlət qulluqçusu hesab olunur. İcra hakimiyyətinə hüquqi məsləhətlər verir və inzibati ədliyə üzrə ali məhkəmə funksiyasını yerinə yetirir.
- Konstitusiya Şurası – ən ali konstitusiya orqanıdır. Prezident və parlament seçkilərinə rəhbərlik edir. Rəsmi nəticələri elan edir. Referendumun legitimliyini təmin edir.Konstitusiyanın prunsip və normalarına riayət olunmasını təmin edir. Tərkibi 9 il müddətinə təyin olunan 9 üzvdən ibarətdir. Onların üçdə biri, hər üç ildən bir yeni üzvlərlə əvəz olunur və üzvlərin təkrar tərkibə düşmək hüququ yoxdur. Üzvlərdən biri Respublika Prezidenti, biri Milli Assambleyanın Sədri, biri isə Senatın Prezidenti tərəfindən təyin olunur. Bunlardan başqa ölkənin keçmiş prezidentləri birbaşa siyasətlə məşğul olmadıqları halda könüllü Surada təmsil olunurlar. Şuranın prezidentini Fransa Prezidenti təyin edir.
- Milli Nəzarət Şurası – Dövlət Şurasının üzvü olan 5 nəfərdən təşkil olunur.Seçki kampaniyasına və bu proses zamanı dövlət qurumlarının bütün namizədlərə bərabər şərait yaratmasına nəzarət edir. Hər namizəd tərəfindən təqdim olunan seçki kampaniyası materiallarını nəzərdən keçiri və onları təsdiq edir. Qanun pozuntuları zamanı sanksiya tətbiq etmək səlahiyyəti olmasa da, işləri inzibati vəya cəza məhkəmələrinə göndərmək hüququ var. Seçkilərdən sonra hökumətə namizədlərin davranışı baxımından ortaya çıxan problemləri özündə əks etdirən məruzə təqdim edir. Bundan başqa seçki prosesini möhkəmləndirmək üçün tövsiyyələr verir.
- Yerli komissiyalar – hər departamentin prefekti tərəfindən formalaşdırılır. Yerli səviyyədə qeydə alınan hər hansı qanun pozğunluğu barədə Milli Nəzarət Şurasına məlumat verməyə borcludur.
- Fransa Yayım hakimiyyəti – 9 üzvdən ibarət kolegial orqandır. Üzvlərin üçdə birini Respublika Prezidenti, üçdə birini Milli Assambleya, üçdə birini isıə Senatın Prezidenti təyin edir. Seçki kampaniyası zamanı mətbuatın davranışına nəzarət edir.

- Conseil Superieur de L audiovisuel (CSA) – radio, televiziya kimi müxtəlif elektron mətbuat orqanlarının fəaliyyətini tənzimləyir. Seçki prosesində mətbuata tövsiyyələr və təlimatlar verir. Konstitusiya Şurası və Milli Nəzarət Şurası da daxil olmaqla seçkilərə nəzarət edən qurumlarla yaxından əməkdaşlığ edir.

Amerika Birləşmiş Ştatları

MSK – nın 6 nəfər səlahiyyətli namayəndəsi var. Bunlardan biri sədr, biri müavindir. MSK üzvlərini prezident təyin edilir, Senat isə bu onları təsdiq edir. Komissiyanın səlahiyyətli nimayəndələri Federal qanunda Seçki prosesinə aid müddaların həyata keçirilməsinə məsuliyyət daşıyır və bu seçki prosesini idarə edirlər. Onların iş rejimi dövlət qulluqçuları kimi tam iş günü müdətindədir.

Polşa

Seçki komissiyaları 3 pilləli struktura malikdir:

- **Milli Seçki Komissiyası**
- **Dairə Seçki Komissiyası**
- **Məntəqə Seçki Komissiyası**

Milli Seçki Komissiyasının səsvermək hüququ olan 9 üzvü var. Onlardan 3 - ü Konstitusiya Tribunalının sədri, 3 - ü Ali Məhkəmənin sədri, 3 - ü isə Ali İnzibati Məhkəmənin sədri tərəfindən təyin olunur. Bunlar müvafiq olaraq 3 Konstitusiya Tribunalının hakimi, 3- ü Ali Məhkəmənin hakimi, 3 - ü isə Ali İnzibati Məhkəmə hakimlərindən ibarət olur. Onlar öz aralarından bir sədr və iki sədr müavini seçirlər. Siyasi partiyalar, o cümlədən müxalifət partiyaları, azlığlar və bu kimi digər birliklər Komissiyanın tərkibində və işində heç bir təsirə malik deyil. Mərkəzi Seçki ofisi - Milli Seçki Komissiyasının icra orqanıdır. Onun sədri MSK sədrinin tövsiyyəsi əsasında Seym sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunur. MSO – nın vəzifəsi seçki və referendumlara hazırlıq və onların kemirilməsi ilə əlaqədar təşkilati, maliyyə və texniki məsələlər həl edir.

Dairə Seçki Komissiyaları – 7 – 11 nəfər hakimdən ibarət olur. Onlar seçkiyə 52 gün qalmış Ədliyyə Naziri tərəfindən Milli Seçki Komissiyası ilə razılaşdırılaraq təyin olunurlar.

Məntəqə Seçki Komissiyası – 6-1- üzvü seçki gününə ən azı 21 gün qalmış seçki komitələri tərəfindən, bir üzv isə icmanın başçısı (mer) tərəfindən təyin olunur.

Türkiyə

Seçki komissiyaları 4 pilləli struktura malikdir:

- **Yüksək Seçim Kurulu**
- **Rayon Seçki Şuraları**
- **Ərazi Seçki Şuraları**
- **Məntəqə Seçki Komitələri**

Yüksək Seçim Kurulunun – təcrübəli hakimlərdən təşkil olunur. Onun səsvermə hüququ olan 7 üzvü və 4 yardımçi üzvü olur. 6 üzvü Kassasiya Məhkəmələrinin Plenumu, 5 üzv isə Dövlət Şurası öz üzvləri arasından seçir. Sədr və müavinləri Yüksək Seçim Kurulu öz üzvləri arasından seçir. Üzvlərin səlahiyyət müddəti 6 ildir. Yüksək Seçim Kurulu sədri ölkənin ən rütbəli hakimidir.

Rayon Seçki Şuralarına – rayondakı ən rütbəli hakimlər arasından 3 nəfər 2 il müddətinə təyin olunur. Siyasi partiyalar da Şuraya səsvermə hüququ olmayan üzvlər təyin edə bilərlər.

Ərazi Seçki Şuraları - Sədrdən, 6 daimi, 6 yardımçı üzvdən ibarət olur. Üzvlərdən ikisini Şura sədri mülki qulluqçular arasından təyin edir. Əvvəlki seçkidə ən çox səs toplamış 4 siyasi partiyanın hər biri, yeni seçkidə iştirak etdikləri təqdirdə bir üzv və bir yardımçı üzv təyin edə bilərlər.

Məntəqə Seçki Komitələrinin üzvləri - Rayon Seçki Şuraları tərəfindən təyin olunur. Komitə sədrdən, 6 əsas və yardımçı üzvlərdən ibarət olur. Əvvəlki parlament seçkiləridə ən çox səs toplamış 5 siyasi partiyanın bir əsas və bir yardımçı üzv təyin etmək hüququ var. Digər üzvlər isə məntəqənin yerləşdiyi ərazinin bələdiyyə üzvləri arasından püşkatma yolu ilə seçilir.

Sloveniya

Seçki komissiyaları dörd il müddətinə, seçki komitələri hər seçki üçün ayrıca olaraq, təyin edilir. Seçki komissiyaları 3 pilləli struktura malikdir:

1) Milli seçki komissiyası;
2) Dairə seçki komissiyası;
3) Ərazi seçki komissiyaları

Milli seçki komissiyası parlament tərəfindən təyin olunur. Milli seçki komissiyası sədr, beş üzv və onların əvəzedicilərindən ibarətdir. Milli seçki komissiyasının sədri və onun müavini Ali Məhkəmənin hakimləri arasından təyin edilir. Komissiyanın iki üzvü və iki əvəzedicisi hüquq ekspertləri arasından təyin olunur. Komissiyanın üç üzvü və üç əvəzedicisi siyasi partiyaların proporsional təmsilçiliyi nəzərə alınmaqla deputat qrupunun təklifi əsasında təyin edilir.

Dairə seçki komissiyaları milli seçki komissiyası tərəfindən təyin olunur. Dairə seçki komissiyaları sədr, üç üzv və onların əvəzedicilərindən ibarət olur. Dairə seçki komissiyasının sədri və onun müavini hakimlər arasından təyin edilir. Komissiyanın bir üzvü və bir əvəzedicisi hüquq ekspertləri arasından təyin olunur. Komissiyanın iki üzvü və iki əvəzedicisi siyasi partiyaların proporsional təmsilçiliyi nəzərə alınmaqla deputat qrupunun təklifi əsasında təyin edilir. Milli icmanın deputatının seçkisi üzrə xüsusi dairə seçki komissiyasının ən azı bir üzvü həmin icmanın üzvü olmalıdır.

Ərazi seçki komissiyaları milli seçki komissiyası tərəfindən təyin olunur. Ərazi seçki komissiyası seçki ərazisi üçün təyin edilir. Ərazi seçki komissiyaları sədr, üç üzv və onların əvəzedicilərindən ibarət olur. Ərazi seçki komissiyasının sədri hakimlər, onun müavini isə digər hüquqşünaslar arasından təyin edilir. Komissiyanın digər üzvləri siyasi partiyaların proporsional təmsilçiliyi nəzərə alınmaqla deputat qrupunun təklifi əsasında təyin edilir. Ərazidəki yerli icmaların nümayəndə orqanları ərazi seçki komissiyalarının üzvləri və onların əvəzedicilərinin təyinatı ilə bağlı təklif irəli sürə bilər. Parlamentə seçilmiş siyasi partiyaların təkliflərinin sayı az olduqda, komissiya üzvləri və onların əvəzediciləri dövlət orqanları və yerli orqanların rəsmiləri tərəfindən müəyyənləşdirilir.

İtalyan və macar milli icmalarının deputatlarının seçkisi üçün xüsusi seçki dairələri üzrə seçki komissiyaları təyin olunur.

Seçki orqanı sədr, üzvlər və onların əvəzedicilərindən (bundan sonra üzvlər) ibarətdir. Milli seçki komissiyasının sədri və onun müavini konstitusiya məhkəməsinin sədrinin məvacibinin maksimum dörddə biri, milli seçki komissiyasının digər üzvləri isə konstitusiya məhkəməsinin sədrinin məvacibinin maksimum altıda biri məbləğində kompensasiya alırlar. Seçki keçirilməyən dövrdə milli seçki komissiyasının sədri konstitusiya məhkəməsinin sədrinin məvacibinin 10%-i, milli seçki komissiyasının sədr müavini isə konstitusiya məhkəməsinin sədrinin məvacibinin 5%-i məbləğində müavinət alır.

Seçki orqanının bütün üzvləri və ya onların əvəzediciləri iştirak edirsə, bu, yetərsay hesab olunur. Seçki orqanında iştirak etməyən üzvün yerinə onun əvəzedicisi iştirak edirsə, bu, yetərsay hesab olunur. Sədr yalnız öz müavini tərəfindən əvəz oluna bilər. Seçki orqanı bütün üzvlərin səs çoxluğu əsasında qərar qəbul edir. Əgər "lehinə" və "əleyhinə" olan səslər bərabərdirsə, seçki orqanının sədri həlledici səsə malikdir. Əgər seçki orqanı seçkilərin keçirilməsi üçün vacib olan qərarı zamanında verə bilməyibsə, qərarı seçki orqanının sədri verir.

Makedoniya

Seçki komissiyaları 3 pilləli struktura malikdir:

1) Dövlət Seçki Komissiyası;
2) Bələdiyyə Seçki Komissiyaları;
3) Seçki Şuraları

Dövlət Seçki Komissiyası – parlament tərəfindən seçilir**,**Prezident, Prezident müavini və 5 üzv olmaqla 7 nəfərdən ibarətdir. Seçki və Təyinat məsələləri üzrə Parlament Komitəsi müraciət etmiş namizədlərin siyahısını parlamentə təqdim edir. Bu siyahıdakı namizədlərin arasından, müxalifət partiyaları DSK – nın prezidentini, hakim partiya isə prezidentin müavuinin namizədliyini irəli sürür. DSK prezident, prezidentin müavini və üzvləri parlamentdə 2/3 səs çoxluğu ilə seçilirlər. MSK üzvləri təkrar seçilmə hüquq olmaqla 5 il müddətinə seçilirlər. Son seçkilərdə qələbə çalmış partiyadan sonra ən çox səs toplamış partiya müxalifət hesab olunur. Makedoniya azlıqda qalan partiya anlayışı yoxdur.

Aşağıdakı şəxslər DSK prezidenti və üzvü ola bilər:

1. Makedoniya Respublikasında daimi yaşayan ölkə vətəndaşları;
2. Ali təhsilli və ən azı 8 il hüquq (siyasi - seçki sitemləri) sahəsində iş təcrübəsi olan;
3. Hər hansı siyasi partiyanın üzvü olmayan

Bələdiyyə Seçki Komissiyaları – bir prezident, dörd üzv və onların müavinlərindən təşkil olunur**.** Komissiyanın katibi və katib müavini BSK sədri tərəfindən 5 il müddətinə hüquq təhsilli şəxslərdən təyin edilir. Onlar dövlət, bələdiyyə və Skopye şəhər administrasiyalarında çalışan ali təhsilli şəxslər arasından seçilir.

Seçki Şuraları - prezident, dörd üzv və onların müavinlərindən təşkil olunur. Prezident və müavinləri dövlət, bələdiyyə və Skopye şəhər administrasiyalarında çalışan şəxslərdən, 4 üzv və onların müavinləri isə ictimai quluqçular arasında 4 illik müddətə seçilirlər.

Albaniya

Seçki komissiyaları 4 pilləli struktura malikdir:

1) Mərkəzi Seçki Komissiyası;
2) Yerli Hökumət Seçki Komissiyaları;
3) Zona Seçki Komissiyaları
4) Səsvermə Mərkəzi Seçki Komissiyaları

Mərkəzi Seçki Komissiyasının – yalnız bir dəfə təkrar seçilmək hüququ olan 9 üzvdən ibarətdir. MSK aşağıdakı qaydada formalaşır:

- 4 üzvü parlament təyin edir. Namizədlər ən böyük partiyalar istisna olmaqla parlamentdəki sağ və sol partiyalar tərəfindən təqdim olunur**.** Hər vakant yer üçün ən çox 2 nəfərin namizədliyi irəli sürülə bilər**.** Tərəflər öz namizədlərini böyük partiyaların iştirakı olmadan konsesnsus və ya səsvermə yolu ilə seçirlər. Bir deputat birdən artıq namizədi dəstəkləyə bilməz. Namizədlər parlamentin spikeri tərəfindən təqdim olunur.
- 2 üzvü hakimiyyət və müxalifət partiyaların müvafiq olaraq irəli sürdüyü namizədlər arasından seçməklə Prezident təyin edir. Hər vakant yer üçün 2 – dən çox namizəd ola bilməz.
- 3 üzv isə aşağıdakı qaydada Ali Ədalət Şurası tərəfindən seçilir:
  a) 2 üzv iki ən böyük partiyanın Ali Ədalət Şurasına təqdim etdiyi namizədlər arasından təyin edilir. Hər vakansiya üçün ən çox 2 namizəd irəli sürülə bilər.
  b) 3 – cü üzv isə bu qaydada seçilir: iki ən böyük partiyanın hər biri peşəkar hüquşünas olan 4 namizəd irəli sürür. Sonra bu partiyalar qarşı tərəfin namizədlərindən ikisini seçir. Namizədliyi verilmiş bu 4 nəfərdən biri isə 48 saat ərzində Ali Ədalət Şurası tərəfindən 2/3 səs çoxluğu ilə seçilir. Əgər namizədlərdə heç biri 2/3 səs toplaya bilməzsə, eyni gündə təkrar səsvermə keçirilir. Bu dəfə ən çox səs toplamış namizədlər səsə qoyulur. Əgər bu dəfə də

namzidlərdən heç biri səslərin 2/3 - ni toplaya bilmədikdə, ən çox səs toplamış iki namizəd üçün üçüncü tur keçirilir. Bu dəfə səslərin 50 % - ni toplamış namizəd seçilmiş hesab olunur.

MSK sədri və müavini yenidən seçilmək hüququ olmaqla 3,5 il müddətinə üzvlər tərəfindən gizli səsvermə yolu ilə seçilir. Sədr seçkisi üçün hər bir üzvə üzərində 7 üzvün adı yazılmış bülleten verilir. 5 və daha çox səs toplamış üzv sədr seçilmiş olur. Əgər namizədlərdən heç biri minumum 5 səsi toplaya bilmirsə, ən çox səs toplamış 2 namizəd ikinci tura çıxır. Əgər yenə də namizədlərdən heç biri minumum 5 səsi toplaya bilmirsə bu zaman ən çox səs toplayan altı aydan çox olmamaq şərti ilə sədr vəzifəsini icra edir.

Altı aydan sonra yenidən seçki keçirilir. 5 və daha çox səs tyoplamış üzv sədr seçilmiş olur. Əgər namizədlərdən heç biri minumum 5 səsi toplaya bilmirsə, ən çox səs toplamış namizədlərin iştirakı ilə ikinci tur keçirilir. Bu zaman ən çox səs toplayan namizəd sədr seçilir.

MSK sədrinin müavinin namizədliyi MSK sədrinin təmsil etdiyi siyasi mövqeyə əks mövqedə dayanan partiyalar tərəfindən verilir və üzvlər arasında gizli səsvermə yolu ilə seçilir. Səslərin əksəriyyətini toplamış namizəd seçilmiş olur. Əgər namizədlərdən heç biri əksəriyyətin səsinin toplaya bilmirsə, ən çox səs toplamış namizədlərin iştirakı ilə ikinci tur keçirilir. Bu zaman ən çox səs toplayan namizəd sədr müavini seçilir.

Sədr və müavini iki MSK üzvünün təklifi əsasında və üzvlərdən ən azı beşinin səs verdiyi iclasda vəzifədən kənarlaşdırmaq mümkündür. Səsvermə gizlo keçirilir.

MSK katibi təyin olunur və onun səs vermə hüququ yoxdur. Siyasi partiyalar MSK – ya məşvərətçi səs hüququ olan nümayəndələr göndərmək hüququ var.

Seçki məcəlləsində yalnız sağ və sol partiyaların MSK üzvlüyünə seçilməsi nəzərdə tutulub ki, bu da digər partiyalara qarşı ayrı seçkilik yaradır.

Seçki məcəlləsində yalnız sağ və sol partiyaların MSK üzvlüyünə seçilməsi nəzərdə tutulub ki, bu da digər partiyalara qarşı ayrı seçkilik yaradır.

MSK üzvü aşağıdakı tələblərə cavab verməlidir:

- Ali təhsilli olmalı;
- Məhkəmənin qərarı ilə məhkumluğu olmamalı;
- Son 5 ildə heç bir siyasi partiyanın mərkəzi və yerli orqanlarında rəhbər vəzifə tutmamalı;
- Son 5 ildə Dövlət Məlumat Xidməti və Dövlət Polisinin üzvü olmamalı;
- Qanun pozuntusuna görə dövlət qulluğundan kənarlaşdırılmamlı;
- Hüquq, dövlət və ya seçki administratsiyası, insan haqları müdafiəsi sahəsində fəaliyyət göstərən QHT və birliklərdə, ictimaiyyətlə münasibətlər, statistika, politalogiya sahələrinin birində ən azı 5 il təcrübəsi olmalı.

Yerli Hökumət Seçki Komissiyaları 7 üzvdən və səsvermə hüququ olmayan katibdən ibarətdir. Parlamentdə təmsil olunan partiyalardan ikisi – coxluq və müxalifət – hər biri 3 üzvün namizədliyini irəli sürür. Yeddinci üzv isə ixtiyari seçmə yolu ilə ya çoxluq, ya da müxalifət partiyasından seçilir. Seçki Məcəlləsinə görə sədr çoxluq təçki edən partiyadan olduqda, müavin və katib azlıq təşkil edən partiyadan təyin olunur.

Zona Seçki Komissiyaları və Səsvermə Mərkəzi Seçki Komissiyalarının üzvləri 6 siyasi partiyanın irli sürdüyü namizədlərdən təşkil olunur. Bu partiyalar istənilən vaxt təyin etdikləri üzvü dəyişmək hüququna malikdir. Bu prosedura ilə iki əsas siyasi partiyanın orta və aşağı komissiyalara təsiri azaldılmışdır.

Latviya

Seçki komissiyaları 3 pilləli struktura malikdir:

1) Mərkəzi Seçki Komissiyası;
2) Şəhər Seçki Komissiyaları;
3) Region Seçki Komissiyaları

Mərkəzi Seçki Komissiyasının - 9 üzvü var ki, onlardan Sədr və 7 üzv Seym tərəfindən, 1 üzvü isə Ali Məhkəmə tərəfindən 4 il müddətinə seçilir. Seymin hər bir üzvü, o cümlədən siyasi partiyaların nümayəndələri olan deputatlar yazılı formada MSK üzvlüyünə namizəd təqdim edə bilər. Müxalifət partiyalarına və ya azlıqda qalan partiyaları üçün hansısa xüsusi qayda və prosedur nəzərdə tutulmayıb.Msk üzvləri üçün heç bir rəsmi tələb yoxdur. Onların bacarığı və səriştəliyinə görə namizədləri təqdim edənlər və təsiq edən Seym daşıyır.

Şəhər və Region Seçki Komissiyaları 7 – 15 üzvdən ibarət olur. Komissiyadakı üzvlərin sayı müvafiq şura tərəfindən müəyyən edilir. Komissiya üzvləri Latış dili bilən latviya vətəndaşlarından seçilir. Onlar ən azı orta təhsilli olmalıdır.

Ukrayna

Seçki komissiyaları 3 pilləli struktura malikdir:

1) Mərkəzi Seçki Komissiyası;
2) Dairə Seçki Komissiyaları;
3) Məntəqə Seçki Komissiyaları

Mərkəzi Seçki Komissiyası – Namizədlikləri Prezident tərəfindən irəli sürülən, Parlament tərəfindən təyin olunan, 7 illik səlahiyətə malik 15 üzvdən ibarətdir. Prezident namizədləri irəli sürərkən parlamentdəki fraksiya qruplarla məsləhətləşir. MSK sədri və onun 2 müavinini MSK gizli səsvermə yolu ilə özü seçir. MSK - da səsvermə hüququ olmayan üzvlər yoxdur. Qanuna görə MSK üzvü – son 5 ildə Ukraynda daimi qeydiyyatda olmaq şərti ilə, ölkə vətəndaşı olmalı, məhkumluğu olmamalı, ən azı 25 yaşı olmalı, dövlət dilində sərbəst danışmaq bacarığı və əmək qabiliyyətli olmalıdır. MSK üzvü, onun müavinləri, MSK katibi və ən azı 5 üzvün ali hüquq təhsili oilmalıdır. MSK üzvlərinin elmi fəaliyyətdən başqa digər işlərdə işləməsi qadağandır.

Dairə Seçki Komissiyaları – 18 üzvdən ibarətdir. Onların 15 nəfərinin namizədliyi 2005 – ci ildən parlamentdə təmsil olunuan 15 partiya və bloklar tərəfindən irəli sürülüb. Yerdə qalan 3 yerə isə seçkilərdə iştirak etmək üçün qeydiyyatdan keçmiş digər partiyalar namizədlər irəli sürür. Bu 3 yerə üzvlər MSK da keçirilən püşkatma ilə müəyyənləşdirilir. Hər bir partiya və blokun Məntəqə Seçki Komissiyalarının üzvlərinin hər üç kateqoriyasına namizəd vermək hüququ var. Hər bir partiya və blokun DSK – da nümayəndələri olur. Ukraynada 225 DSK var.

Məntəqə Seçki Komissiyaları - DSK –lar formasında təşkil olunur. MnSK – da partiyalar tərəfindən irəli sürülən namizədlər kifayət etmədikdə MnSK sədri müvafiq namizədlər təqdim etmək hüquqna malikdir. Qanunvericilikdə Məntəqə Seçki Komissiyalarında partiya təmsilşiliyini balanslaşdırmaq haqqında heç bir tələb yoxdur. Ukraynada 34039 MnSK var.

Gürcüstan

Seçki komissiyaları 3 pilləli struktura malikdir:

1) Mərkəzi Seçki Komissiyası;
2) Dairə Seçki Komissiyaları
3) Məntəqə Seçki Komissiyaları və
Abxaziya və Acariya Muxtar Respublikalarının ali seçki komissiyaları

Mərkəzi Seçki Komissiyasının - 7 üzvü var. MSK sədrliyinə namizədlər Gürcüstan prezidenti tərəfindən parlamentə təqdim edilir. Digər MSK üzvlüyünə namizədlər isə Rəqabət Komissiyasının Gürcüstan prezidentinə verdiyi təkliflər əsasında parlamentə təqdim olunur. MSK – nın səlahiyyət müddətinin başa çatmasına 60 gün qalmış Gürcüstan prezidenti Rəqabət Komissiyasının yaradılması haqqında sərəncam verir. Komissiya prezidentə hər vakant yer üçün 2 və ya 3 namizəd verir. Rəqabət Komissiyasınınn müraciətindən sonra ən geci 7 gün ərzində prezident hər vakant yer üçün 2 namizəd, MSK sədrliyinə 1 namizəd müəyyənləşdirir.

Namizədlərin siyahısı parlamentə təqdim edildikdən 14 gün ərzində parlament adlı səsvermə yolu ilə MSK üzvlərini və sədrini seçir. Hər bir namizəd ayrı – ayrılıqda səsə qoyulur.

Ən çox səs toplayan namizədlər seçilmiş hesab olunur. Boş qalmış yerlər olarsa seçki proseduru yenidən keçirilir. Eyni namizəd 2 dəfədən çox olmayaraq irəli sürülə bilər. Siyasi partiyalar MSK – da təmsil olunmurlar.

Qanunla MSK üzvü – ali təhsilli, heç bir partiyanın üzvü olmayan, ictimaiyyətə müraciət imici olan, Gürcü dilində sərbəst danışan, Seçki administrasiyasının sertifikatını almış, ən az 3 il iş təcrübəsi olan şəxslər ola bilərlər.

Dairə Seçki Komissiyaları - MSK tərəfindən verilmiş sertifikatlara malik olan şəxlərdə aşıq müsabiqə yolu ilə seçilirlər.

Məntəqə Seçki Komissiyası - 9 üzvdən ibarətdir. Son seçkilərdə ülk üç yeri tutmuş partiyaların MnSK üzvlərinin 2/3 hissəsini təyin etmək hüququ var. Yedə qəlan üzvlər DSK tərəfindən təyin olunur. Gürcüstanda 76 DSK, 3033 MnSK fəaliyyət göstərir.

İstifadə edilmiş ədəbiyyat

---

1. Dahl Robert " Demokratiya haqqında" Bakı 2005
2. Andrew Reynolds & Ben Reilly/ The International IDEA: Handbook of Elektoral System Desig. Stokolm: International Institute for Democracy and Elektoral Assistance, 1997
3. Avropa Şurası və Venetsiya Komissiyasının 9 noyabr 2007 – cu il tarixdə Bakı şəhərində keçirdiyi konfransın materialları